# Sosial problemlər və mənəvi tarazlıq

## “Yoxsulluq” poeması haqqında düşüncələr

*(Əvvəli ötən saylarımızda)*

Məlahət Soltanqızının poetik yaradıcılığında poema janrı xüsusi əhəmiyyət kəsb edir. Əlbəttə, poemalarının ayrı-ayrı hissələrində lirik mətnlər də yer alır. Elə həmin lirik mətnlər əsasında onun çox həssas bir lirik olduğunu da aydın şəkildə görmək olar. Yəqin ki, hər bir şair üçün ilk göstərici onun lirika ilə nə dərəcədə bağlı olduğu əsas şərtdir. Biz bu şərtin dəqiqliyini, aydınlığını Məlahət Soltanqızının geniş və əhatəli həyat hadisələrini təsvir edən poemalarının ayrı-ayrı hissələri arasına gətirilən həzin, incə ruhlu şeirlərində, yəni lirikasında görə bilirik, duya bilirik.

Məlahət Soltanqızı həyata daha əhatəli istiqamətdə baxır. Onun müşahidə imkanları üfüqdən şəfəqəcən, şəfəqdən üfüqəcən həyatın bütün mənzərələrini əhatə edir.

Biz müəllifin poemalarını oxuyanda ağlımıza da gəlmir ki, o hansı məqamda, hansı hissədə situasiyanı dəyişəcək, hadisəyə münasibətini hansı kövrək duyğularla ifadə edəcək. Ancaq o, müəllif həssaslığı ilə psixoloji vəziyyətin dəyişkənliyini yerində, yetərincə duyur. Ürəkləri titrədən məqamlarda lirik şeir janrlarından da yerinə görə əsərini zinətləndirə bilir.

Müəllifin “Yoxsulluq” adı ilə təqdim etdiyi poemasında maddi imkanlarına görə fərqlənən ailələrin arasında yaranmış ziddiyyətlərin nəyə səbəb olduğunu, hansı faciələrə yol açdığını sadəcə sakit düşüncələrlə müşahidə etmək mümkün deyil. Müəllifin təsvir etdiyi həmin mənzərələr bizim gözlərimizin önündə canlandıqca həyatda nə qədər dəhşətli faciələrin mənasız, heç bir dəyəri olmayan iddialar nəticəsində baş verdiyini anlaya bilirik.

Murad gəncdir, cavandır. O öz könlü ilə sevib, duyğularının qanadlarında uçaraq Zənurə adlı qızın könül məkanında öz yerini tapıb.

Bu sətirləri yazdığım anlarda həzin azan sədaları eşidilir. Dinləyirəm. Əgər həqiqətən insanlar ruhlarını təmizləmək məqsədi ilə bu azan sədalarını bir vasitə hesab edirsə, onda gərək yer üzündə müsəlman adlana bilən bir kimsənin ədalətsiz hökmü olmasın. Amma özünü qatı müsəlman ölkəsi hesab edən İranın məscidlərindən yəqin ki, elə günün bu vaxtında, saat qurşağının məqamına uyğun olaraq azan səsləri eşidilir. Bəs onda İran boyu insan qanına susayan cəlladların düşüncələri hansı məntiqə əsaslanır? Demək, yer üzündə ədaləti bərpa etmək üçün islami düşüncədən də əvvəl bir vicdani düşüncə, vicdani hökm olmalıdır. İnsanlar özləri başa düşməlidirlər ki, nədə haqlıdırlar, nədə haqsızdırlar. M.Soltanqızı “Yoxsulluq” poeması ilə əslində cəmiyyətə çatdırmaq istəyir ki, sizin hər hansı çürük məntiqiniz bir insan həyatının ölüm hökmü ilə sona yetməsinə haqq qazandıra bilməz. Bu mənada Məlahət Soltanqızının “Yoxsulluq” poeması kifayət qədər cəmiyyətdə ziddiyyət yarada biləcək, ayrı-ayrı zümrələr arasında uçurumlar törədə biləcək gücdə görünən amili maddiyyatla bağlamır, insanların mənəvi kasadlığı ilə, insanların öz niyyətlərinə qul olmaq, tabe olmaq, ən başlıcası, qeyri-insani xislətin arxasınca sürünmək niyyətinin nəticəsi olaraq ortaya çıxır.

“Yoxsulluq” poeması bir bədii əsərdir. Və mən qətiyyən düşünmürəm ki, bu əsər hansısa müəllif uydurmasının nəticəsidir. Həyatda belə hadisələr az olmur.

Mənim işlədiyim dağ kəndində bir cavan olub. Özünəsözünə güvənən, kifayət qədər də iddialı bir cavan. O özünün qonşuluğunda yaşayan bir qızı sevib, ürəkdən istəyib. Amma iş elə gətirib ki, həmin qızı müəyyən məcburiyyət qarşısında başqasına ərə verirlər. Aydın məsələdir ki, qız da yaşadığı həyatla barışmır, razılaşmır və sevgilisi olan gəncin təkidi ilə həmin ailədən geriyə - ata evinə qayıdır. Heç uzun da çəkmir, həmin gənc qızı oğurlayıb aparır. Artıq gəlin hamilədir.

Təzə ərinin evində uşaq dünyaya gəlir və başqasının övladıdır. Bunu təzə əri də yaxşı bilir. Özünə, mənəviyyatına, təbiidir ki, həm də çürük mənəviyyatına əsaslanaraq həmin uşağı qəbul etmək istəmir. Və dünyaya gəlmiş günahsız körpəni elə qırxı çıxan gündə vannada boğub öldürür.

Mən sonralar həmin ailəni, həmin həyatı, həmin insanları müşahidə etmək imkanım oldu. Beləliklə, həmin qadından təzə ərin sevgili həyatı, şirin həyatı başlayıb. Və əkiz oğul övladı dünyaya gətirir.

Bütün hadisələr sanki keçmişdə qalır, hər şey unudulur. Həmin qadın da özünü bəxtəvər hesab edir, kişi də özünü qürurlu sayır. Əkiz övladları ilə qürurlanır. Bacarıqlı, qoçaq oldu üçün hər kəslə yerinə görə danışmaq gücü olduğuna görə kifayət qədər məşhur olaraq tanınır. Və nəhayət, bir gün...

Aradan uzun illər keçmişdi. Mən daha o yerlərdə deyildim. Ancaq bir gün eşitdim ki, həmin əkiz qardaşlar eyni maşında qəzaya düşürlər və hər ikisi həmin qəzada həlak olmuşdu.

Mən bu hadisəni eşidəndə aramızda uzun məsafələr vardı. Həm də zaman da bizi ayırmışdı. Ancaq o hadisəni eşidən kimi mənim yaddaşıma gəldi. Həmin kənddə qoca bir kişi vardı. O kişi mənə danışdı ki, ay bala, elə bilmə ki, Allahın yadından nəysə çıxıb. Bu məsələnin haqq-hesabı hələ sonra olacaq.

Şamansayağı deyilmiş bu sözlər də, o qoca da mənim gəlib həmin xəbəri eşitdiyim günlərdə gözlərimin önündə bitdi. Bir daha inandım ki, qanunun, kitabın cəza vermədiyi cinayətlərin haqq-hesabı nəhayət ki, həyati həllini bu dünyada da tapa bilir. Qısası, bu hekayəti Məlahət Soltanqızının “Yoxsulluq” adlandırdığı poemasının son hissəsini oxuyarkən xatırladım. 50 il bundan əvvəlin hekayətidir və kifayət qədər ibrətlidir.

Muradın anası da oğlunun kasıb qızı ilə, kasıb ailənin övladı ilə evlənməsindən narazıdır və bununla barışmır. Bəs vəziyyətdən necə çıxsın? Hələ üstəlik, qız evə hamilə olaraq gəlin gəlib. Amma qadının təkəbbür, sinfi ziddiyyət düşüncələri onun gözlərinin o dərəcədə qapayıb ki, o Zənurənin bətnində gələn uşağın öz nəvəsi olduğunu belə qəbul edə bilmir.

Zənurə dünyaya uşaq gətirir. Muradın anası sevinmək əvəzinə yasa batır.

İndi Muradın anası dünyaya gəlmiş körpəyə baxıb fərəhlənmək əvəzinə şeytani düşüncələr içərisində vurnuxur. Bu vurnuxmanın nəticəsi isə çox dəhşətli faciə ilə nəticələnir:

Yuxu dolmuş gözünə
Gəlin xumarlanırdı.
Çəkildi otağına
Qəm içində qaynana
-Görən-bilən nə deyər -
Vurnuxurdu otaqda
Dönmüşdü bir dəliyə
-Kimsə bilməsin gərək
Başımdakı bəlanı
Əlimlə məhv etməsəm
Beşikdəki ilanı
Başıma qaxınc olar
İllər-aylar zamanı.
Cumub aldı körpəni
O, taxta beşiyindən
Uzaqlaşdı sükutla
Evindən, eşiyindən.
Açıb bağça qapısın
Bağa adlayan zaman
Canında bir üşənti
Bir sarsıntı duyunca
Dönüb geri baxsa da
Sanki bir divar kimi
Canında can yox idi
Getmirdi ayaqları
Geriyə dön deyirdi.
Söykəndi bir ağaca
Bir az durdu, dayandı
Ətrafına boylandı
Sonra dilsiz körpəni
Sakitcə yerə qoyub,
Qaçdı evinə sarı.

Çox dəhşətli mənzərədir. Günahsız olaraq dünyaya gəlmiş bir körpəni sən anasının qucağından götürüb, anasının huşsuz vəziyyətdə olmasından, bixəbərliyindən, köməksizliyindən istifadə edib onun əlindən alasan. Uşağı qışın qarlı günündə, küləklərin qabağında edama məhkum edəsən.

Məlahət Soltanqızı həmin anları çox real cizgilərlə təsvir edir. Sanki gözlərimizin önünə gəlir. Qəddar nənə öz nəvəsini qucağına alıb edama aparır. Guya onun düşüncəsində şərəf motivi var, qeyrət, hünər motivi var. Halbuki, həmin anlarda o qatı insanlıq cinayətkarıdır.

Belə hadisələri görmək, duymaq, müşahidə etmək və nəhayət, yazıya gətirmək yazıçıdan böyük insanpərvərlik hissi tələb edir. Məlahət Soltanqızı da əslində həmin hissləri yaşayaraq yazıya gətirib. Qadın köməksiz körpəni çovğunun qabağında qoyur. Çöldə, insan nəfəsi dəyməyən bir tərəfdə tərk edir.

Bəs körpənin köməyi kim olacaq? Belə halda Allahın qüdrəti çatarmı bu Allahsızlığın qarşısını ala bilsin. Çox təəssüf ki, hadisələrin acınacaqlı gedişatının qarşısını ala biləcək bir təsadüf yoxdur. Bəlkə də müəllif sözün həqiqi mənasında özündən bir təsadüf imkanı uydura bilərdi. Ancaq o buna lüzum görmür. Bu cinayətin faciəli nəticəsini insanlara çatdırmaq üçün bütün qəddarlıq motivlərini yerli-yerində olduğu kimi təsvir edir:

Təpildi otağına,
Qucaqladı divarı,
Son saatda olanlar
Sığışmırdı ağlına,
Sanki bənzəri vardı
Min bir gecə nağlına
Yatağına uzandı...
O, gecə bir daş oldu
Asıldı gözlərindən
Gecəni çox gözlədi
Gözlədi bir səs gələr,
Körpə bir ağlasaydı,
Taqətsiz gəlin sorub,
Körpəni arasaydı,
Başı çaşmış qaynana
Bu günaha batmazdı.

Qadın, əlbəttə, ona nənə demək olmur, ona insan kimi baxmaq olmur - törətdiyi cinayətin miqyasını yaxşı dərk edir. Ancaq bu cinayətin nəylə nəticələnəcəyini belə gözə almır. Ancaq hər bir insanın daxili-mənəvi mühitində bir məhkəmə hakimiyyəti var. Uşağı ölümə məhkum edən, edama aparan nənə gecəni səhərə qədər yata bilmir. O, səs gözləyir, səmir gözləyir. Bu işin nəylə qurtaracağını bəlkə də həmin səslə anlamağa çalışır. Amma heç bir səs-səmir yoxdur.

Əgər onun adına nənə demək mümkünsə, bu yırtıcı qadın səhəri diri gözlə açır və özünü hövlnak edam yerinə çatdırır. Nə görsə yaxşıdır? Yaxşı olar ki, bu mənzərəni elə M.Soltanqızının təsvirləri əsasında görək:

Bir səs-səmir gəlmədi
Uzun gecə bayırdan
Qaynana dedi yəqin
Körpə donub bayaqdan
Ağlında fırlanırdı,
Səhər erkən qalxaram,
Gecə donmuş körpəni
Beşiyinə qoyaram.
Xoruzlar banladıqca
Dəhşətdən sarsılırdı.
Göy üzü aralanıb
Səhər açar-açılmaz
Sıçradı yatağından
Tez çıxdı otağından.
Düşdükcə pillələri
əyilirdi dizləri.
Ölüm pərvanə kimi
Fırlanırdı başına
Əzrayıl sığal çəkir
Kirpiyinə qaşına.

Muradın anasının adı Qəmərdir. Qəmər mahiyyətcə Ay deməkdir. Yəni işıq deməkdir, nur deməkdir. Amma bu ayın təbiəti bir ailənin dünyasına qaranlıq gətirir. Yazıçı sanki bununla demək istəyir ki, heç də adlar insan mənəviyyatının hansı görkəmdə olmağını axıracan əks etdirmir. Bir sözlə, biz bir ailənin dünyasını qaraldan, varlığına qənim kəsilən, analıq adına layiq olmayan bir cinayətkarın əməlinin nəticəsini görürük.

Bəzən bədii əsərlərdə daha betər hadisələrin şahidi oluruq. Əlbəttə, yazıçının qüdrətindən asılıdır. Onun təsviri ilə biz hadisənin miqyasını qavramağa çalışırıq. Amma bəzən elə hadisələr də görürük ki, yazıçı sanki həyatda gördüklərinə heç bir müdaxilə etmədən olanı təsvir dir. Bu da istər-istəməz oxucu yaddaşına hopur, düşüncələri sarsıdır. Biz həyat reallıqlarını əks etdirdiyinə görə və müəllifin hadisəyə səmimi yanaşmasına görə əsərdəki təsvirləri real həyat cizgiləri hesab edirik və yəqin ki, uzun zaman yaddan çıxara bilmirik:

Qəmər səssiz-səmirsiz
Düşüb enincə bağa
Gözünə inanmadı...
Əllərini qaldırıb
Çırpınca dizlərinə
Sanki qaranlıq çökdü
Dəhşətdən gözlərinə,
Gördü körpənin başı
Diyirlənib bir yana
Qolu, qıçı, bədəni
Səpələnib hər yana
İtlər parçalamışdı
O, günahsız körpəni
Dəhşətdən titrəyirdi
Günahkar bədəni.
İstədi toplasın
Dağılmış canı
Qalxmadı qolları
Donmuşdu qanı
Söykəndi ağaca
Söykəndi zorla
Bütün varlığıyla,
Düşdü qüvvədən
Çökdü qarış-qarış,
Çökdü amansız.

Beləcə əsər çox dəhşətli bir faciə ilə sona çatır. Biz çox istəyərdik ki, hadisə belə qurtarmasın. Son anda bir möcüzə baş versin. Həmin körpəni xilas edə bilən bir qüvvə ortaya çıxsın. Çox təəssüf ki, belə bir möcüzə baş vermir. Belə bir xilaskar tapılmır, çünki həmin xilaskar həmin cinayətin törədicisi olan Qəmər ananın (əgər ona ana demək olarsa) içində gizlənib. O, həmin xilaskarı içində öldürüb, ona hərəkət imkanı vermir. Beləliklə, cinayət qarşısıalınmaz bir hadisəyə çevrilir.

İmkanlar, situasiyalar dəyişəcək, körpənin evdən necə çıxarılmağı, onun həyatə necə aparılmağı, bu iz asanlıqla itməyəcək. Şübhəsiz, qanun da öz sözünü deyəcək. Bəlkə də həmin Qəmər ana, analıq adını daşımağa layiq olmayan bu qadın peşmanlığını etiraf edəcək, ancaq əli hara çatacaq, nəyə nail olacaq? Şübhəsiz, bunlar cəmiyyətin ixtiyarına buraxılan suallardır və heç vaxt unudulmayacaq suallardır.

*(Davamı 15-ci səhifədə)*

*(Əvvəli 3-cü səhifədə)*

Əsərin sonunda müəllifin ibrətlik düşüncələrini oxumalı oluruq:

Ey tanrının bəndəsi!
Səndə olan nə varsa
Tanrının hədiyyəsi
Göz açıb baxdığın yer,
Gördüyün həyat ki var
Bircə anın içində
Qaranlıq zindan olar.
Atdığın hər addımın
Çıxardığın hər səsin
Bircə udum nəfəsin
Qiymətini bil ki, sən,
Göydən yerə enmisən.
Haqqı nahaqqa satma,
Günahsızın bostanına daş atma.
Yaxşıların yaxşılığın dilə gətir.
Yamanların əməlinə olma çətir.
Hər əməlin əvəzini görəcəksən!
Əməlinlə öz-özünə,
Ömür yolu hörəcəksən.

Kifayət qədər müəllif qənaətini ifadə edən düşüncələrdir. Həm də təkcə müəllif qənaətini yox, təbiətində az-çox ədalət hissi olan hər bir insanın düşüncələrini ifadə edən motivlərdir.

M.Soltanqızı bu poeması ilə cəmiyyətin yaşam tərzinə, insanların maddi imkanlara görə düşüncə fərqlərinə çox dəyərli münasibət bildirib. Sonluqda da lap klassiklərsayağı ibrətli düşüncələrini yazıya gətirib.

Müəllif bu əsəri 2002-2003-cü illərdə yazıya alıb. Deməli, təqribən iyirmi il bundan əvvəl cəmiyyətdəki təbəqələşmənin yarada biləcəyi fəsadları müəllif dəqiq və aydın görüb. Hətta yazısının sonunda müəllif üçün xarakterik olan yazının qələmə alındığı məkan da verilib: “Kürdəmir-Bakı”. Zənnimizcə, bu məkan göstəricisinin özü də müəyyən əhəmiyyətə malikdir. Demək müəllif iki il ərzində ayrı-ayrı məkanlarda olsa da belə, həmin mövzu ətrafında düşünüb və yazısını davam etdirib. Başqa sözlə, o mövzu ilə yaşayıb.

Mövzu ilə yaşayan müəlliflərin yazdıqları, yaratdıqları həmişə cəmiyyət tərəfindən rəğbətlə qarşılanır.

***17.01.2023***